Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ______________________ **Soyad** ______________________

## 11-ci sinif

# COĞRAFİYA

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** Cədvələ əsasən Pamir dağlarının verilmiş dağlarla oxşar xüsusiyyətlərini müəyyən edin.

| I Qafqaz | II And | III Alp |
|---|---|---|
| a. Mütləq hündürlüyü Altay dağlarının mütləq hündürlüyündən daha çoxdur. | a. Ərazisindən axan çaylar iki okean hövzəsinə aiddir. | a. Mülayim işıqlanma qurşağında yerləşir. |
| b. Qar xəttindən yuxarıda yerləşən əraziləri mövcuddur. | b. Hind - Avropa dillərində danışan xalqlar məskunlaşıb. | b. Subnival və nival landşaftlara rast gəlinir. |
| c. Xəzər dənizi hövzəsinə aid olan çayların mənbəyi yerləşir. | c. Litosfer tavalarının konvergent sərhədində yaranıb. | c. Fəaliyyətdə olan vulkanlara rast gəlinir. |

A) I-a, c; II-b, c; III-a, c
B) I-b, c; II-a, b; III-a, b
C) I-a, b; II-a, b, c; III-b, c
D) I-b; II-b, c; III-a, b, c
E) I-a, b; II-b, c; III-a, b

**2.** Doğru fikirləri müəyyən edin.

1. 25 mart-15 sentyabr aralığında Şimal yarımkürəsinin istənilən məntəqəsində gündüzün uzunluğu gecənin uzunluğundan daha çox olur.
2. İqlim qurşaqları təkrar olunan bütün materiklərdə Günəş ilboyu günorta vaxtı zenitdə olur.
3. VI və XVI saat qurşaqları iki materiklə kəsişir.
4. Bütün ilboyu Bakı şəhərində gündüzün uzunluğu Moskva şəhərindəkindən daha çox olur.
5. Çukot və Malakka yarımadaları orta qırışıqlıq vilayətində yerləşir.
6. Troposferin yuxarı sərhədi ekvatordan qütbə doğru bütün coğrafi enliklərdə eynidir.

A) 1, 3, 5   B) 2, 4, 6   C) 2, 3, 5   D) 1, 3, 6   E) 1, 2, 4

**3.** Şimali Amerika və Afrika materikləri üçün doğru sıraları müəyyən edin.

| № | *Aiddir* | *Aid deyil* |
|---|---|---|
| 1 | Subekvatorial iqlim qurşağı tam zolaq təşkil edir. | Tropik iqlim qurşağının rütubətli tipinə rast gəlinir. |
| 2 | Günəşin ildə iki dəfə zenitdə olduğu ərazilər mövcuddur. | Ekvatorial hava kütlələrinin hakim olduğu ərazilər mövcuddur. |
| 3 | Buzlaq mənşəli relyef formalarına rast gəlinir. | Üç işıqlanma qurşağında yerləşir. |
| 4 | Geosinklinalın platformaya çevrilməsinin həm III, həm də IV mərhələsində olan relyef formaları mövcuddur. | Dağ buzlaqlarına rast gəlinmir. |
| 5 | Şimal-şərq istiqamətindən cənub-qərb istiqamətinə doğru əsən daimi küləklər mövcuddur. | Fəaliyyətdə olan vulkanlara rast gəlinmir. |
| 6 | Təbii artımın II tipinə aid olan ölkələr mövcuddur. | Yerləşdiyi litosfer tavaları yalnız materik mənşəlidir. |

A) 2, 5, 6   B) 1, 3, 6   C) 4, 5, 6   D) 2, 3, 4   E) 1, 3, 4

**4**. *22 iyunda günorta vaxt Günəşin ən böyük bucaq altında düşdüyü enlik ilə 130°qərb uzunluğunun kəsişməsindən şimal istiqamətində hərəkət edən tədqiqatçı çatdığı məntəqədə günorta vaxtı kölgə uzunluğunun öz uzunluğuna bərabər olduğunu müşahidə etdi. (Nəzərə alın ki, 1°-lik meridian qövsünün uzunluğu 111 km-dir)*
Tədqiqatçının çatdığı məntəqə üçün doğru fikirləri müəyyən edin.

1. Qütb işıqlanma qurşağında yerləşir.
2. İlin əksər vaxtı qütb gündüzləri müşahidə edilir.
3. Bakı şəhəri ilə arasındakı ən qısa məsafə əvvəlcə şimal sonra isə cənub istiqamətdə hərəkət etməklə 1:55500000 miqyaslı xəritədə 14,3 santimetrdir.
4. Tədqiqatçının çatdığı məntəqə Sakit okeanda yerləşir.
5. Gecə və gündüzün adi növbələşməsi pozulur.
6. Daimi küləklər müşahidə edilmir.

A) 2, 3, 5   B) 1, 4, 6   C) 2, 4, 6   D) 1, 3, 5   E) 3, 4, 5

**5**. Cədvələ əsasən uyğun sıraları müəyyən edin.

| № | *Materiklər* | *Doğru xüsusiyyətlər* | *Yanlış xüsusiyyətlər* |
|---|---|---|---|
| 1 | Avrasiya | Həm mülayim həm də subtropik iqlim qurşağının bütün tiplərinə rast gəlinir. | Tropik iqlim qurşağı qərbdən şərqə tam zolaq təşkil edir. |
| 2 | Afrika | Şimali Amerika litosfer tavası ilə divergent sərhədə malikdir. | Mülayim hava kütlələrininn hakim olduğu ərazilər mövcud deyil. |
| 3 | Şimali Amerika | Qərb sahillərində mülayim dəniz iqlim tipinə rast gəlinir. | Tropik iqlim qurşağının rütubətli tipinə rast gəlinmir. |
| 4 | Cənubi Amerika | Şimal ucqar nöqtəsində şaquli dirəyin kölgə uzunluğu günorta vaxtı heç zaman öz uzunluğuna bərabər olmur. | Parana çayının sutoplayıcı hövzəsi üç iqlim qurşağında yerləşir. |
| 5 | Antarktida | İki işıqlanma qurşağında yerləşir. | Ərazisinin əksər hissəsi ən qədim qırışıqlıq vilayətində yerləşir. |
| 6 | Avstraliya | Həm tropik həm də subtropik iqlim qurşağının üç tipinə rast gəlinir. | Mütləq maksimum hündürlüyə malik olan nöqtə mülayim işıqlanma qurşağında yerləşir. |

A) 1, 3, 6 B) 2, 3, 5 C) 2, 4, 6 D) 1, 3, 5 E) 4, 5, 6

**6.** Ölkəmizin iqlimi ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Mülayim isti iqlim tipinin yayıldığı ərazilərdə Paleogen yaşlı süxurlara rast gəlinir.
2. Yarımsəhra və quru çöl iqlim tipinə bütün tektonik zonalarda rast gəlinir.
3. Böyük Qafqaz dağlarının həm şimal-şərq həm də cənub yamaclarında qışı quraq keçən soyuq iqlim yarımtipinə rast gəlinir.
4. Kür çayının sutoplayıcı hövzəsində dağ-tundra iqlim tipinə rast gəlinir.
5. Yarımsəhra və quru çöl iqlim tipinin yayıldığı bütün ərazilərdə yağıntıların orta illik miqdarı 300 mm-dən çox olmur.
6. Kiçik Qafqaz tektonik qalxma zonasında dağ tundra iqlim tipinə yalnız Murovdağ və Zəngəzur silsiləsində rast gəlinir.

A) 1, 3, 5 B) 1, 2, 4 C) 4, 5, 6 D) 1, 2, 6 E) 2, 3, 4

**7.** Dənizlərlə bağlı verilmiş uyğun sıraları müəyyən edin.

| *№* | *Dəniz* | *Aiddir* | *Aid deyil* |
|---|---|---|---|
| 1 | Baltik | Həm İEÖ, həm də İEOÖ sahillərini yuyur. | Bir işıqlanma qurşağında yerləşir. |
| 2 | Cənubi Çin | Mekonq çayının eroziya bazisidir. | Səthində buxarlanma və buxarlanma qabiliyyəti arasındakı fərq böyükdür. |
| 3 | Bofort | Banks adasının sahillərini yuyur | Coğrafi mövqeyinə görə adalararası dəniz hesab edilir. |
| 4 | Aralıq | Üç yarımkürədə yerləşir və üç qitənin sahillərini yuyur. | Karpat dağlarından başlayan çayların mənsəbi yerləşmir. |
| 5 | Qırmızı | Günəş ilboyu zenitdə olur. | İki iqlim qurşağında yerləşir. |
| 6 | Barens | Yalnız gecə və gündüzün adi növbələşməsinin pozulduğu enliklərdə yerləşir. | Şimal Buzlu okeanda yerləşdiyi üçün soyuq okean cərəyanlarının təsirinə daha çox məruz qalır. |

A) 2, 3, 6 B) 1, 3, 4 C) 4, 5, 6 D) 1, 3, 5 E) 2, 4, 6

**8.** Cədvələ əsasən doğru bəndi müəyyən edin.

| Nil çayı | | |
|---|---|---|
| I Missisipi çayı oxşar | II Parana çayı fərqli | III Yenisey çayı oxşar |
| a. Mənsəbində kölgə uzunluğu ilboyu günorta vaxtı sıfra bərabər olmur.<br>b. Alçaq enliklərdən yüksək enliklərə doğru hərəkət edir.<br>c. Yerləşdiyi materikdə IV dövr buzlaşmasının izlərinə rast gəlinir. | a. Mənsəbində dekabr, yanvar və fevral aylarında mülayim hava kütlələri hakim olur.<br>b.Qidalanmasında yağış suları üstünlük təşkil edir.<br>c. Yerləşdiyi litosfer tavasının okean mənşəli litosfer tavası ilə subduksiya sərhədi mövcuddur. | a. Mənsəbinə yaxın ərazilərdə əhalı sıx məskunlaşıb.<br>b. Sutoplayıcı hövzəsində bataqlıqlara rast gəlinir.<br>c. 15 apreldə mənsəbində gündüzün uzunluğu gecənin uzunluğundan daha çoxdur. |

A) I-a, b; II-b, c; III-a, b
B) I-a, c; II-b, c; III-a, b
C) I-b, c; II-a, c; III-b, c
D) I-a, c; II-a, c;  III-b, c
E) I-b, c; II-a, b; III-a, c

**9.** Doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Dəclə, Fərat və Mekonq çaylarının aşağı axarlarının yerləşdiyi ovalıqlarda fiziki aşınma intensiv baş verir.
2. Amudərya və Sırdərya çayları təbiətdə suyun böyük dövranında birbaşa iştirak etmir.
3. Orinoko və Niger çaylarının mənbələri eyni yarımkürələrdə yerləşir.
4. Ölkəmizdə perlit, travertin və xromit yataqlarına eyni inzibati rayonda rast gəlinir.
5. Balakən və Zaqatala inzibati rayonlarının alçaq dağlıq ərazilərində Paleogen, yüksək dağlıq ərazilərində isə Yura yaşlı çöküntülər geniş yayılıb.
6. Mülayim işıqlanma qurşağında yalnız mülayim istilik qurşağı mövcuddur.

A) 1, 3, 4  B) 2, 4, 5  C) 1, 3, 5  D) 2, 4, 6  E) 1, 5, 6

**10**. Cədvələ əsasən uyğunluğu müəyyən edin.
("+" aiddir, "-" aid deyil)

| № | Xüsusiyyətlər | Fransa | Yaponiya | Argentina | Hindistan |
|---|---|---|---|---|---|
| 1 | Yalnız bir işıqlanma qurşağında yerləşir | + | + | + | - |
| 2 | Unitar respublikadır | + | + | - | + |
| 3 | Cavan dağlar mövcuddur | - | + | - | + |
| 4 | G20 ölkələri qrupuna daxildir | + | + | + | + |
| 5 | Əksər əhali Hind-Avropa dillərində danışır | + | - | + | + |
| 6 | Subtropik iqlim qurşağı mövcuddur | + | + | + | + |

A) 1, 3, 4  B) 1, 3, 6  C) 2, 4, 6  D) 2, 3, 5  E) 4, 5, 6

**11**. Dağın ətəyində atmosfer təzyiqi 700 mm c.s.-dur. Dağın maksimal hündürlüyü dəniz səviyyəsindən 3100 metr yüksəkdə yerləşir. Dağın zirvəsi ilə ətəyi arasındakı temperatur fərqini Faranheyt şkalası ilə hesablayın. (Nəzərə alın ki, dəniz səviyyəsində atmosfer təzyiqi normaldır).

A) 69,3°F  B) 35°F  C) 59°F  D) 37,3°F  E) 56,2°F

**12**. Cədvələ əsasən doğru bəndi müəyyən edin.
("+" uyğundur, "-" uyğun deyil)

| № | Ölkə | + | - |
|---|---|---|---|
| 1 | İtaliya | Fəaliyyətdə olan vulkanlara rast gəlinir. | Avstriya ilə quru sərhədinə malikdir. |
| 2 | CAR | Sahillərini iki okeanın suları yuyur. | İki anklav dövlətlə həmsərhəddir. |
| 3 | Braziliya | BRİKS (BRICS) təşkilatının üzvüdür. | Mülayim işıqlanma qurşağında yerləşir. |
| 4 | Avstraliya | Əhali sıxlığı şərq hissəsində qərbə nisbətən yüksəkdir. | Yerləşdiyi litosfer tavası Afrika tavası ilə yaxınlaşır. |
| 5 | Rusiya | Demoqrafik keçidin IV mərhələsindədir. | Ərazisinin və əhalisinin əsas hissəsi Asiya qitəsində yerləşir. |
| 6 | Çin | Həm ÜMM, həm də ÜDM-da yerli şirkətlərin payı üstündür. | Dünyanın əsas buğda ixracatçılarından deyil. |

A) 2, 4, 5 B) 1, 3, 5 C) 2, 3, 6 D) 2, 4, 6 E) 1, 3, 6

**13**. Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| *Doğru* | *Yanlış* |
|---|---|
| 1. Palçıq vulkanları ölkəmizin yalnız bir təbii vilayətində rast gəlinir.<br>2. Kür çökəkliyi təbii vilayətində həm Neogen həm də IV dövr çöküntülərinə rast gəlinir.<br>3. Həm Böyük, həm də Kiçik Qafqaz təbii vilayətində vulkanogen (effuziv) çökmə süxurlara rast gəlinir. | 4. Bütün təbii vilayətlərdə yarımsəhra və quru-çöl iqlim tipinə rast gəlinir.<br>5. Qanıx, Qudyal və Həkəri çaylarının mənsəbləri eyni iqlim tipində yerləşir.<br>6. Xəzər dənizinin səviyyəsinin aşağı enməsi limanlar üçün əlverişli şərait yaradır. |

A) 1, 3, 4 B) 2, 4, 5 C) 1, 3, 6 D) 2, 3, 6 E) 2, 3, 5

**14.** 2024-ci il üçün tərtib edilmiş yaş-cins piramidasının hansı ölkəyə aid olduğunu müəyyən edin.




A) Moldova B) Bosniya və Hersoqovina
C) Bolqarıstan D) Qətər E) Yəmən

**15**. Doğru ***olmayan*** fikirləri müəyyən edin.

1. Mərmərə dənizinin orta duzluluğu Baltik dənizinin orta duzluluğundan daha çoxdur.
2. Bayron ucqar nöqtəsinin sahillərindən isti okean cərəyanı hərəkət edir.
3. Pangeya təqribən 4,5 milyard il bundan əvvəl Lavrasiya və Qondvanaya parçalanıb.
4. Aleut və Azor adaları subduksiya zonasında yerləşir.
5. 40° cənub enliklərində okeanların səth sularının orta illik temperaturu 40° şimal enliyində okeanların səth sularının orta illik temperaturundan daha aşağıdır (Azonal amillər nəzərə alınmadan).
6. Şərqi Antarktidanın sahil xətti materikin qərbi ilə müqayisədə daha çox parçalanıb.

A) 2, 3, 6 B) 1, 2, 5 C) 3, 4, 6 D) 1, 3, 6 E) 3, 4, 5

**16**. Cədvələ əsasən doğru sıranı müəyyən edin.

| S/S | Tektonik zonalar | Xüsusiyyətlər |
|---|---|---|
| 1 | Böyük Qafqaz qalxması | Yanacaq ehtiyatlarından yalnız neft və təbii qaz mövcuddur. |
| 2 | Ön Qafqaz çökməsi | Neogen yaşlı çöküntülər üstünlük təşkil edir. |
| 3 | Kiçik Qafqaz qalxması | Arxey erasından başqa digər bütün geoloji eraların çöküntülərinə rast gəlinir. |
| 4 | Kür çökməsi | Mütləq hündürlüyü 500 metrdən çox olan relyef formalarına rast gəlinir. |
| 5 | Araz çökməsi | Neogen yaşlı çöküntülərə rast gəlinir. |

A) 4, 5  B) 1, 5  C) 2, 3  D) 2, 4  E) 1, 3

**17**. İki xarici ölkə ilə həmsərhəd olan inzibati rayonları müəyyən edin.

1. Qax  2. Cəbrayıl 3. Tovuz  4. Samux
5. Ordubad  6. Şahbuz

A) 1, 3, 6
B) 1, 2, 5
C) 2, 4, 6
D) 3, 4, 5
E) 1, 3, 5

**18**. Yer kürəsinin sxemdəki vəziyyətinə uyğun ***gəlməyən*** əlamətləri müəyyən edin.




1. Apennin yarımadasında gündüzün uzunluğu Skandinaviya yarımadasındakından daha azdır.
2. 68,5°şimal enliyində günorta vaxtı günəş şüalarının düşmə bucağı 45°-dir.
3. Yalnız Şimal tropikindən şimalda yerləşən məntəqələrdə gündüzün uzunluğu 12 saatdan çoxdur.
4.Tropik işıqlanma qurşağında yerləşən bütün məntəqələrdə şaquli dirəyin kölgə uzunluğu öz uzunluğundan daha qısadır.
5.Həm Şimal, həm də Cənub qütb dairəsində gecə və gündüzün adi növbələşməsi pozulub.
6. Ən uzun paralel üzərində günəş şüalarının günorta vaxtı düşmə bucağı 60°-dir.

A) 1, 3, 5  B) 2, 4, 6  C) 3, 4, 6  D) 1, 4, 6  E) 1, 2, 3

**19**. Veilmiş ölkələrə aid ***yanlış*** xüsusiyyətləri müəyyən edin.
1. Fransa  2. Kanada  3. Braziliya
4. Çin  5. Türkiyə  6. Qazaxıstan

| | | |
|---|---|---|
| I | 1, 2, 4 | Federativ inzibati ərazi quruluşuna malikdir. |
| II | 4, 5, 6 | Çayları iki okean hövzəsinə aiddir. |
| III | 1, 3, 5 | Aralıq dəniz iqlim tipinə rast gəlinir. |
| IV | 1, 2, 3 | Əksər əhali Hind-Avropa dillərində danışır. |
| V | 1, 2, 6 | Mülayim iqlim qurşağında yerləşir. |
| VI | 1, 2, 5 | Cavan dağlara rast gəlinir. |

A) II, IV, VI
B) I, III, V
C) II, IV, V
D) III, V, VI
E) I, II, III

**20.** İqlim diaqramının aid olduğu məntəqənin yerləşdiyi inzibati rayonu üçün doğru ***olmayan*** fikirləri müəyyən edin.




1. İki xarici ölkə ilə həmsərhəddir.
2. Qışı mülayim keçən yarımsəhra və quru-çöl iqlim yarımtipinə rast gəlinir.
3. Qara metallurgiyanın xammal ehtiyatı mövcuddur.
4. Mülayim isti iqlim tipinin bütün yarımtipləri mövcuddur.
5. Yura dövrünə aid olan çöküntülər, Təbaşir dövrünün çöküntülərindən daha çox ərazidə yayılıb.
6. 4000-metrdən yüksək dağ zirvələrinə rast gəlinmir.

A) 1, 3, 5 B) 2, 3, 4 C) 2, 4, 6 D) 3, 4, 5 E) 1, 5, 6